# İSTEDADLI UŞAQLARLA İŞİN TƏŞKİLİ
# ОРГАНИЗАЦИЯ РАБОТЫ С ТАЛАНТЛИВЫМИ ДЕТЬМИ
# ORGANIZATION OF WORK WITH TALENTED CHILDREN

UOT 371

***Elnurə Fazil qızı Səfərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-4151-1750*
https://doi.org/10.69682/azrt.2024.91(2).105-108

***Sevinc Anar qızı Pəniyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0000-5279-762X*

## İSTEDADLI ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİ

***Эльнура Фазиль гызы Сафарова***
*доктор философии по биологии, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

***Севиндж Анар гызы Паниева***
*Азербайджанский Государственный Педагогический Университет*

## ОРГАНИЗАЦИЯ РАБОТЫ С ОДАРЕННЫМИ УЧЕНИКАМИ

***Elnura Fazil Safarova***
*associate professor at*
*Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in biology,*

***Sevinj Anar Paniyeva***
*Azerbaijan State Pedagogical University*

## ORGANIZATION OF WORK WITH TALENTED STUDENTS

**Xülasə.** İstedadlı və bacarıqlı şagirdlərlə işləmək, onların aşkara çıxarılması və inkişafı məktəb fəaliyyətinin ən vacib aspektlərindən birinə çevrilmişdir. İstedadlı şagirdlərlə iş sahəsində pedaqoji fəaliyyət prinsiplərinə-şəxsi inkişaf üçün nəzərdə tutulan imkanların maksimum müxtəlifliyi; məktəbdənkənar fəaliyyətlərin rolunun artırılması; təhsilin fərdiləşdirilməsi və fərqləndirilməsi; müəllimlərin minimal iştirakı ilə şagirdlərin birgə işi üçün şərait yaratmaq daxildir.
***Açar sözlər:*** *fərdi yanaşma, qabiliyyət, tədqiqatçılıq, intellektual, metod*

**Резюме.** Работа с одаренными и талантливыми учащимися, их раскрытие и развитие стала одним из важнейших аспектов деятельности школы. Принципы педагогической деятельности в области работы с одаренными учащимися включают максимальное разнообразие возможностей личностного развития; повышение роли внеклассных занятий; персонализация и дифференциация образования; создание условий для совместной работы учащихся при минимальном участии учителей.
***Ключевые слова:*** *индивидуальный подход, способности, исследование, интеллектуальный, метод*

**Summary.** Working with gifted and talented students, their discovery and development has become one of the most important aspects of school activities. The principles of pedagogical activity in the field of

work with gifted students include the maximum variety of opportunities for personal development; increasing the role of extracurricular activities; personalization and differentiation of education; includes creating conditions for students' joint work with minimal participation of teachers.

***Key words:*** *individual approach, ability, research, intellectual, method*

Hazırki dövrdə istedad və yaradıcılıq potensialı cəmiyyətin milli sərvəti və strateji ehtiyatıdır. Bu potensialın aşkarlanaraq dəstəklənməsi, inkişaf etdirilib səmərəli şəkildə cəmiyyətin xeyrinə gerçəkləşdirilməsi hər bir müstəqil dövlətin milli strateji probleminə çevrilmişdir. İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərindən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra, xüsusən də 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin respublikamızda siyasi rəhbərliyə qayıdışı ilə milli-mənəvi dəyərlərin dirçəlişinə, iqtisadiyyatın, sosial sahələrin inkişafına güclü stimul verilmiş, bunlarla bərabər, ölkənin təhsil sisteminin yenidən qurulmasına, qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiya olunmasına geniş imkanlar açılmış, istedadlı uşaq və gənclərə diqqət və qayğının artırılması ölkə Konstitusiyasında təsbit edilərək, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Son illər Azərbaycanda istedadlı uşaq və gənclərin səmərəli təhsil almasını təmin etmək məqsədilə yeni tipli tədris müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmiş, lisey və gimnaziyalarda təhsilin məzmununun müasir tələblərə uyğunlaşması məqsədi ilə yeni tədris plan və proqramları hazırlanaraq tətbiq edilməyə başlamış, pedaqoji kadr heyətinin tərkibi ilbəil yaxşılaşdırılmışdır. 1999-cu ildən qüvvəyə minən ümumi orta təhsilin dövlət standartları çərçivəsində təsdiq olunmuş ümumtəhsil məktəblərinin Bazis tədris planında seçmə fənlərə ayrıca saatların ayrılması da istedad potensialının aşkara çıxarılıb formalaşdırılmasına, həmin uşaq və gənclərlə iş sisteminin təkmilləşdirilməsinə müəyyən dərəcədə müsbət təsir göstərmişdir. Prezident İlham Əliyevin "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2006-ci ildə imzaladığı sərəncam belə şagirdlərin səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasını stimullaşdırdı. 2006–2010-cu illəri əhatə edən Dövlət Proqramının əsas məqsədi də məhz respublikanın ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialını vaxtında müəyyənləşdirib, onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, ictimaiyyətin diqqətini bu vacib məsələnin həllinə yönəltməkdən ibarətdir. 2013-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edilirdi ki, təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərində qazanıldığından onların zehninin erkən yaş dövründən inkişafı qayğısına qalmaq vacibdir. Dövlətin göstərdiyi qayğıya cavab olaraq məktəblərin, müəllimlərin öhdələrinə çox məsuliyyət düşür.

Əgər uşaq tədris prosesində, fərdi yaradıcılığı zamanı qeyri-adi uğurlar qazanırsa, öz yaşıdlarından fərqlənirsə, deməli, o, istedadlıdır. İstedad və bacarıq anlayışları əlaqəli olmaqla, biri digərini müəyyən edir. Orta ümumtəhsil məktəblərində fənn müəllimlərinin əsas vəzifəsi hər bir şagirdin inkişafını izləmək, onların qabiliyyətlərinin səviyyələrini müəyyən etməkdir. İstedadlı uşaqlarla işləyərkən aşağıdakı metod və priyomlardan istifadə edilməsi məqsədəuyğundur:

1.tədqiqatçılıq 2.qismən axtarıcılıq 3.problemli təlim 4.layihələr metodu və s.

İntellektual marafonlardan, müxtəlif müsabiqə və viktorinalardan, şifahi, rollu oyunlardan istifadə etmək də məsləhətdir. Bütün bunlar imkan verir ki, istedadlı şagirdlər əlverişli yaradıcılıq növü seçə və öz potensial imkanlarını göstərə bilsinlər. Bu, onların gələcək inkişafına stimul verir. Dərsdə cütlərlə, kiçik qruplarla işdən, müxtəlif çətinlik səviyyəli yaradıcı tapşırıqlardan, problemlə əlaqədar məsləhətləşmələrdən, diskussiyalardan və başqa iş formalarından istifadə edilə bilər. İstedadlı uşaqlarda aşağıdakı xüsusiyyətlər özünü göstərir:

- yüksək yaradıcı təfəkkür;
- uyğunlaşma bacarığı;
- proqnozlaşdırma bacarığı;
- diqqətin yüksək dayanıqlılığı.

Hər bir müəllim diferensial yanaşmanın köməyi ilə bu xüsusiyyətləri inkişaf etdirməlidir. İstedadlı uşaqlarla işləyərkən bunları bilmək vacibdir:

- tədris proqramını zənginləşdirmək, təlimin məzmununu yeniləşdirmək və genişləndirmək;
- şagirdlərin qavrama qabiliyyətlərini inkişaf etdirmək;
- diferensiasiya əsasında işləyərək şagirdlərə fərdi yanaşmaq;
- özünün və bütün sinfin təlim-tərbiyə prosesini təhlil etmək;
- pedaqoji-psixoloji məzmunlu qərarlar qəbul etmək;
- kollektiv yaradıcılıq fəaliyyəti üçün material hazırlamaq.

İstedadlı şagirdlərlə məktəb daxilində aparıla biləcək iş formalarını aşağıdakı kimi qruplaşdıra bilərik:

1) Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin arasında istedadlı uşaqları müəyyən edərək, istedadlı şagird bankının yaradılması. Bu bank ilkin informasiya xarakteri daşıyır. Belə ki, istedadlı şagird bankının yaradılması üçün ilk növbədə istedadlı şagirdləri müəyyən sistem üzrə qruplaşdırmaq lazımdır ki, burada həmin şagirdlərin meyl, maraq, hədəf və məqsədləri dəqiqləşdirilir.

2) İstedadlı gənclərin meyil, maraq və hədəfləri müəyyən edildikdən sonra "xüsusi istedadlı şagirdlər" ayrıca qruplaşdırılır, çünki istedadlı şagirdlər istedad və qabiliyyətinin səviyyələrinə görə də bir-birindən fərqlənir. Onlar bacarıq və qabiliyyətlərini bir fəndə və ya bir neçə fəndə göstərə bilərlər. Məsələn, mümkündür ki, şagirdin bioloji bilikləri çox yüksəkdir, o bu sahədə istedadlıdır. Buna baxmayaraq, onun rəsm çəkməkdə xüsusi qabiliyyəti yoxdur və ya şeir əzbərləməkdə çətinlikləri var. Bu fakt bizə əsas vermir ki, belə şagirdlərə istedadsız deyək. Deməli, istedadlı şagird dedikdə hərtərəfli bilik və bacarıqları olan (yəni burada biz hər bir tədris fənni və ya elm sahəsi üzrə bütün biliklərə sahib olmanı nəzərdə tuturuq) şagird nəzərdə tutulmur, vurğuladığımız kimi hərtərəfli inkişaf etmiş şagirdin olması da mümkünsüz olardı. Belə olan halda həmin şagirdlərlə iş apararkən onlar üçün xüsusi dərnəklər təşkil olunmalıdır.

3) İstedadlı şagirdlərlə iş apararkən onları həm məktəb daxilində təşkil olunan, həm də məktəblərarası bilik yarışmalarına cəlb etmək lazımdır.

4) İstedadlı şagirdlərlə işin təşkili formalarından biri də onları müəyyən fənlər üzrə fənn olimpiadalarına cəlb etməkdir. Bu həmin şagirdlərin istedadının inkişafına geniş imkanlar açar.

5) İstedadlı şagirdlərin istedadının inkişafına yol açan iş formalarından biri də onların müəyyən sahə üzrə istedadı müəyyən edildikdən sonra onları əlavə məşğələlərə cəlb etməkdir. Müəllim şagirddəki istedadı müəyyən etdikdən sonra onun istedadını inkişaf etdirmək üçün həmin şagird və ya şagirdlərə əlavə məşğələlər təyin edir.

6) İstedadlı şagirdlər üçün "Kiçik Akademiya"ların təşkil olunması, xüsusi istedadı ilə seçilən şagirdləri müvafiq elm sahəsində tanınan alimlərin elmi kəşfləri ilə tanış olmağa yönləndirmək və onların elmi himayəsində çalışmağa şərait yaratmaq lazımdır. Bu zaman həmin şagirdlərdə tədqiqatçılıq bacarığı formalaşır ki, məktəblər istedadlı şagirdlərlə iş apararkən bu istiqaməti diqqətdən qaçırmamalıdır.

7) Ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən, Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institutlarından tanınmış alimləri məktəblərə dəvət edərək, istedadlı şagirdlərin belə alimlərin ustad dərslərinə qulaq asmalarına şərait yaratmaq məqsədəuyğundur. Bunun, onların dünyagörüşünün formalaşmasına, elmi prosesə daha ciddi yanaşmalarına təkan verəcəyinə inanırıq.

8) İstedadlı şagirdlərlə iş formalarından biri də respublikadakı bütün istedadlı şagirdlərin birliyini, dərnəyini yaratmaq, həmin birliyin tədbirlərini təşkil etməkdir, burada toplanan istedadlı şagirdlərin arasından ən istedadlılarını seçmək onların beynəlxalq olimpiadalarda iştirakına şərait yaradacaqdır.

İstedadlı şagirdlərlə iş aparmaq aşağıdakı səmərəli nəticələrin əldə olunmasına imkan verir:

1) İstedadlı şagirdlərlə iş apararkən hər zaman müəllim, məktəb kollektivi, ailə birgə fəaliyyət göstərməli, belə şagirdləri vaxtında aşkar etməlidirlər.

2) İstedadlı şagirdlərə olan dövlət qayğısı cəmiyyətdə elmə olan marağın, diqqət və həvəsin artmasına imkan yaradacaq, digər şagirdlərin də elmə istiqamətlənməsinə imkan verəcəkdir.

Bundan başqa, istedadlı şagirdlərlə iş aparan məktəb və müəllimlərin peşəkarlıq səviyyəsi yüksələcəkdir.

3) İstedadlı şagirdlərlə iş apararkən beynəlxalq təcrübəyə əsaslanmaq, müasir təhsil sistemimizi dünyanın ən qabaqcıl təhsil müəssisələri ilə əlaqə yaratmağa, onların təcrübəsindən bəhrələnməyə imkan verəcəkdir.

4) İstedadlı şagirdlərlə iş formaları təşkil olunarkən təhsil sahəsində, tədris proqramında, tədris metodlarında dəyişikliklərin olması mütləq olacaq və bu da təhsilimizin beynəlxalq arenada özünəməxsus yer tutmasına kömək edəcəkdir.

**Problemin aktuallığı**. Təhsilin əsas məqsədlərindən biri istedadlı uşaqların üzə çıxarılması, onların qabiliyyət və yaradıcılıq imkanlarının aşkarlanması, onlara yanaşma metodikasının formalaşdırması, inkişaf etdirilməsi, dövlət qurumlarının və təhsil müəssisələrinin istedadlılara xüsusi qayğı məsələsi aktualdır.

**Problemin yeniliyi.** İstedadlı uşaqların vaxtında aşkarlanması, dəstəklənməsi və inkişaflarının təmin edilməsi, onlara verilən tələblərin reallaşdırılması üçün şərait yaratmaqdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə istedadlı uşaqlarla işləyən pedaqoqların müəllimlərin, magistrant və doktorantların onlara yanaşma metodikasının təşkili işində dəyərlidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı (2006-2010-cu illər). −Bakı: Təhsil, −2006. -48 s.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. −Bakı: Qanun, -2009.
3. Əliyev, B.H. Pedaqoji psixologiya / B.H. Əliyev, K.R. Əliyeva, R.V. Cabbarov. − Bakı: Təhsil, -2011. -254 s.
4. Əliyev B.H. Təhsildə şəxsiyyət problemi / B.H. Əliyev, R.V. Cabbarov. −Bakı:Təhsil,-2008.-136 s.
5. İnklüziv sinifdə təlimin təşkili mövzusunda ixtisasartırma proqramının Oxu materialı. Avropa İttifaqı, Azərbaycan Təhsil Nazirliyi, UNİC.
6. İnklüziv siniflərdə təlimin təşkili. TİPİİ. Oxu materialı. -Bakı:-2018, −80 s.
7. Səfərova, E. Biologiyanın tədrisində həyati bacarıqların aşılanması ilə şagird şəxsiyyətinin formalaşdırılması: Dərs vəsaiti / E. Səfərova. -Bakı: −2018.
8. The differentiated classroom : responding to the needs of all learners / Carol Ann Tomlinson.-USA:-140s.
9. https://www.edglossary.org/differentiation/
10. https://study.com/academy/lesson/what-is-differentiated-instruction-examples-definition activities.htmlv

**E-mail:** seferovaelnure@mail.ru
veliyevasevinc1502@gmail.com
**Redaksiyaya daxil olub:**18.03.2024.